UOT 72.01
https://doi.org/10.59849/2218-4783.2026.1.245

# ƏBƏDİYAŞARLIĞIN QORUNMASI: MÖMİNƏ XATUN TÜRBƏSİ ÜZƏRİNDƏ APARILAN KONSERVASİYA VƏ RESTAVRASİYA TƏDBİRLƏRİ

# PRESERVING ETERNITY: CONSERVATION AND RESTORATION MEASURES IN THE MOMINE KHATUN TOMB

**Brilyant CƏFƏRLİ***

## XÜLASƏ

Möminə xatun türbəsi XII əsrdə böyük memar Əcəmi Naxçıvani tərəfindən inşa edilmiş, Azərbaycan memarlıq məktəbinin ən möhtəşəm abidələrindən biridir. Zəngin ornamental kompozisiyası, kitabə və simvolik məzmunu ilə seçilən bu memarlıq nümunəsi əsrlər boyu həm regionun, həm də ümumən Türk-İslam mədəniyyətinin bədii-estetik inkişafına təsir göstərmişdir. Lakin zamanın aşındırıcı qüvvələri, təbii iqlim şərtləri və insan faktorları türbənin qorunmasını zəruri etmişdir. XX əsrdən başlayaraq abidə üzərində müxtəlif konservasiya və restavrasiya tədbirləri həyata keçirilmiş, kərpic konstruksiyaların möhkəmləndirilməsi, ornamental naxışların bərpası və kitabələrin qorunması istiqamətində mühüm işlər görülmüşdür. Müasir mərhələdə isə 3D skanlama, rəqəmsal sənədləşdirmə və yeni qoruyucu materialların tətbiqi kimi texnologiyalar abidənin daha dayanıqlı mühafizəsini təmin edir. Məqalədə Möminə xatun türbəsi üzərində aparılan qoruyucu tədbirlər elmi baxımdan təhlil olunur, həm milli, həm də ümumbəşəri mədəni irs nümunəsi kimi abidənin gələcək nəsillərə ötürülməsinin əhəmiyyəti vurğulanır.

**Açar sözlər:** *memarlıq, abidə, türbə, konservasiya, restavrasiya.*

## ABSTRACT

The Momine Khatun Mausoleum was built in the 12th century by the great architect Ajami Nakhchivani and is one of the most magnificent monuments of the Azerbaijani architectural school. This architectural example, distinguished by its rich ornamental composition, inscriptions and symbolic content, has influenced the artistic and aesthetic development of both the region and Turkic-Islamic culture in general for centuries. However, the corrosive forces of time, natural climatic conditions and human factors have necessitated the preservation of the mausoleum. Beginning in the 20th century, various conservation and restoration measures have been carried out on the monument, and significant work has been done to strengthen the brick structures, restore the ornamental patterns and protect the inscriptions. At the modern stage, technologies such as 3D scanning, digital documentation and the application of new protective materials ensure more durable protection of the monument. This article analyzes the protective measures undertaken at the Momine Khatun Mausoleum from a scholarly perspective and emphasizes the importance of transmitting the monument to future generations as an example of both national and universal cultural heritage.

**Keywords:** *architecture, monument, mausoleum, conservation, restoration.*

## GİRİŞ

Möminə xatun türbəsi Azərbaycan memarlığının, ümumilikdə Türk-İslam memarlıq irsinin ən parlaq nümunələrindən biri kimi XII əsrdə formalaşmış yüksək memarlıq mədəniyyətinin şah əsəridir. Bu abidə Şərq memarlıq tarixində dərin iz qoymuş, Naxçıvan memarlıq məktəbinin banisi

* AMEA Naxçıvan Bölməsi, e-mail: brilliant1cefer@yahoo.com
ORCİD: 0009-0008-4149-4293

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığının zirvəsini təşkil edir. Türbə yalnız memarlıq baxımından deyil, həm də dövrün fəlsəfi-estetik dünyagörüşünü, dini simvolikasını və mədəni düşüncə sistemini özündə əks etdirən bədii-fəlsəfi bir məkan kimi diqqət çəkir. Bu monumental abidənin kompozisiya bütövlüyü, ornamental tərtibatın zənginliyi və kalliqrafik yazıların harmoniya içərisində birləşməsi XII əsr Azərbaycan memarlıq düşüncəsinin zirvəsini təmsil edir. Abidənin tarixi əsasları Səlcuq dövrünün mədəni yüksəlişi ilə əlaqələndirilir. Belə ki, türbə Səlcuqlu dövrü memarlıq abidələrinin struktur xüsusiyyətlərinin daha da inkişaf etmiş formasıdır. Möminə xatun türbəsi Atabəylər dövlətinin hökmdarı Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə xatunun xatirəsinə ucaldılmışdır. Bu məzar abidəsi həm hökmdar xanımın mənəvi dəyərlərini yaşadan bir simvol, həm də dövlətin siyasi-mədəni qüdrətini əks etdirən monumental bir memarlıq nümunəsi olmuşdur. Əsrlər boyu müxtəlif dövrlərin siyasi, iqlim və sosial təsirlərinə məruz qalan türbə, zamanla təbii eroziya, rütubət, külək və istilik fərqləri kimi ekoloji amillərin təsiri ilə aşınmaya uğramışdır. Bu səbəbdən abidənin qorunması və orijinal xüsusiyyətlərinin saxlanılması məqsədilə sistemli elmi konservasiya və restavrasiya tədbirlərinin həyata keçirilməsi zərurəti yaranmışdır.

## ABİDƏNİN MİLLİ-MƏDƏNİ YADDAŞIN DAŞIYICISI KİMİ ROLU

Azərbaycan memarlıq irsinin qorunması sahəsində Möminə xatun türbəsi xüsusi yer tutur. Abidə yalnız bir tarixi memarlıq nümunəsi deyil, həm də mədəni yaddaşın daşıyıcısı, milli kimliyin və estetik zövqün təcəssümüdür. Onun üzərində aparılan qoruyucu tədbirlər təkcə kərpic konstruksiyaların bərpası deyil, həm də bir dövrün memarlıq düşüncəsinin, ornamentalistikasının və kalliqrafiya sənətinin elmi əsaslarla yaşadılması istiqamətində mühüm mərhələdir. Bu tədbirlər həm milli irsə, həm də beynəlxalq səviyyədə mədəni dəyərlərin qorunması sahəsində Azərbaycan təcrübəsinə töhfə kimi dəyərləndirilə bilər.

## XX ƏSRDƏ APARILAN İLKİN BƏRPA MƏRHƏLƏLƏRİ VƏ PRİNSİPLƏRİ

XX əsrin ortalarından başlayaraq türbənin bərpası ilə bağlı müxtəlif mərhələlərdə mühüm işlər görülmüşdür. İlk dövrlərdə abidənin konstruktiv sabitliyinin təmin edilməsi, dağılmış kərpic və daş hissələrin möhkəmləndirilməsi əsas məqsəd olmuşdur. Daha sonrakı mərhələlərdə isə dekorativ memarlıq elementlərinin, epiqrafik yazıların və ornamentlərin elmi bərpası həyata keçirilmişdir. Hər bir müdaxilə zamanı memarlıq orijinallığının qorunması, yeni materialların uyğunlaşdırılması və abidənin tarixi təbiətinə zərər vurulmaması əsas prinsip kimi götürülmüşdür. Bu baxımdan Möminə xatun türbəsi üzərində aparılan işlər, Azərbaycan memarlıq irsinin qorunması sahəsində elmi-metodoloji yanaşmaların təkmilləşməsində mühüm təcrübə kimi çıxış edir.

## MÜASİR KONSERVASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

Müasir mərhələdə konservasiya və restavrasiya prosesləri artıq ənənəvi üsullardan fərqli olaraq elmi tədqiqatlara, texnoloji yeniliklərə və rəqəmsal metodlara əsaslanır. Möminə xatun türbəsində tətbiq edilən yeni nəsil mühafizə texnologiyaları – 3D lazer skanlama, fotoqrammetrik modelləşdirmə və material analizləri abidənin dəqiq sənədləşdirilməsinə, struktur dayanıqlığının qiymətləndirilməsinə və gələcəkdə planlaşdırılacaq bərpa işlərinin elmi əsaslarla aparılmasına imkan verir. Bu yanaşmalar yalnız abidənin fiziki formasını deyil, onun mənəvi və simvolik dəyərini də qorumağa xidmət edir [Mateus and o., 2019, s. 843, 847]. Beləliklə, Möminə xatun türbəsinin qorunması təkcə bir abidənin fiziki saxlanması deyil, həm də Azərbaycan memarlıq irsinin canlı tarix kimi gələcək nəsillərə ötürülməsi prosesidir. Bu abidənin mühafizəsi milli kimliyimizin, mədəni dəyərlərimizin və memarlıq düşüncəmizin davamlılığını təmin edən mühüm mədəni missiya daşıyır.

## MEMARLIQ QURULUŞUNUN MÜHAFİZƏ BAXIMINDAN ELMİ TƏHLİLİ

Möminə xatun türbəsinin memarlıq quruluşu, sadəcə estetik və funksional baxımdan deyil, həm də qoruma və restavrasiya prosesləri üçün metodoloji baza kimi dəyərləndirilə bilər. Əsərin həcmi-kompozisiya həlli, material strukturu və ornamentik sistemi abidənin dayanıqlılıq və bərpa potensialını müəyyənləşdirən əsas amillərdəndir. Bu baxımdan türbənin memarlığı mühafizə elminin predmetinə çevrilmişdir.

## KONSTRUKTİV SABİTLİK VƏ SİMVOLİK MEMARLIQ HƏLLİ

Əcəmi Naxçıvaninin yaratdığı bu memarlıq forması daimi dayanıqlığa əsaslanan rasional konstruktiv prinsiplər üzərində qurulmuşdur. Bu formalar simvolik sabitlik anlayışı ilə bağlıdır. Onbucaqlı gövdə forması, yuxarıya doğru yüngülləşən kütlə quruluşu, yeraltı sərdabənin statik təsiri abidənin yüzillərlə sabit qalmasını təmin edən mühəndislik həlləridir. Bu konstruktiv mükəmməllik sayəsində Möminə xatun türbəsi zamanın və iqlimin sınaqlarına rəğmən öz monumental bütövlüyünü qoruyub saxlamışdır. Türbənin gövdəsinin yerdən göyə ucalan kompozisiyası, harmonik nisbətləri və yuxarı hissəsində yerləşən kufi yazıların sanki səmaya yönəlməsi insan ruhunun Tanrıya qovuşma ideyasını ifadə edir. Qoruma tədbirlərinin əsas məqsədi də məhz bu orijinal statik tarazlığı müdaxiləsiz qorumaq olmuşdur. Bu tədbirlərin fəlsəfi mənası da bu simvolizmin maddi daşıyıcısını qorumaqdır. Burada bərpa işi təkcə fiziki müdaxilə deyil, mənəvi dəyərin elmi bərpası kimi anlaşılır.

## MATERİAL XÜSUSİYYƏTLƏRİ VƏ UYĞUN BƏRPA YANAŞMALARI

Türbənin material quruluşu, yəni bişmiş kərpic və gəc məhlulu ilə birləşdirilmiş kompozisiyalar bərpa prosesi üçün xüsusi yanaşma tələb edir. Kərpicin tərkibindəki gil qatının bölgənin iqlim rütubətinə uyğunluğu, Əcəminin istifadə etdiyi məhlulun elastikliyi və məsaməli quruluşu abidənin nəfəs alan sistem kimi davranmasına şərait yaradır. Buna görə də müasir restavrasiya zamanı orijinal materialın kimyəvi tərkibinə yaxın materialların seçilməsi əsas elmi prinsiplərdən biridir. Məhz bu səbəbdən son bərpa işlərində sement əsaslı məhlulların istifadəsindən imtina edilərək, əhəng və gil əsaslı möhkəmləndirici qarışıqlardan istifadə olunmuşdur.

## ORNAMENTAL VƏ KALLİQRAFİK ELEMENTLƏRİN QORUNMASI

Ornamental və kalliqrafik elementlər qoruma baxımından ayrıca həssaslıq tələb edən hissələrdir. Abidənin səthindəki kufi xətti ilə işlənmiş kitabələr həm dini məna, həm də bədii dəyər baxımından bərpanın mərkəzində dayanır. Zamanla iqlim və günəş radiasiyası nəticəsində ornamentlərin rəng qatında solma və çatlamalar müşahidə olunmuşdur. Bu kimi hallarda rəng qatının altında qalan orijinal təbəqələrin qorunması üçün mikrorestavrasiya texnikaları yəni, mikroskop altında qat-qat bərpa üsulları tətbiq edilmişdir.

## AUTENTİKLİK PRİNSİPİNİN BƏRPA PROSESİNDƏ ROLU

Türbənin mühafizəsi zamanı qarşıya çıxan mühüm məsələlərdən biri də "autentiklik prinsipi" olmuşdur. Bu prinsipə əsasən, abidənin üzərində aparılan hər bir texniki müdaxilə onun tarixi kimliyini dəyişməməli, yeni əlavə edilən elementlər orijinaldan seçilə bilməli, lakin ümumi harmoniya pozulmamalıdır. Naxçıvanda aparılan restavrasiya prosesləri zamanı bu prinsipin qorunması Azərbaycan memarlıq bərpası məktəbinin beynəlxalq səviyyədə qəbul edilən metodologiyaya uyğunluğunu göstərir. Beləliklə, Möminə xatun türbəsinin memarlığı yalnız tarixi və estetik dəyəri ilə deyil,

həm də qorunma potensialı və bərpa texnologiyalarına yön verən elmi model kimi xüsusi əhəmiyyət daşıyır. Onun orijinal material sistemi, simmetrik quruluşu və simvolik məzmunu müasir mühafizə elminin əsas prinsipləri, yəni "orijinallığın qorunması", "material uyğunluğu" və "tarixi yaddaşın saxlanılması" baxımından nümunəvi tədqiqat obyekti olmuşdur.

## ABİDƏNİN ZƏDƏLƏNMƏ SƏBƏBLƏRİ VƏ QORUMA ZƏRURƏTİ

Möminə xatun türbəsi inşa olunduğu əsrdən bu yana keçən uzun zaman kəsiyində təbii və antropogen təsirlərə məruz qalmışdır. Zamanın, iqlimin və mühitin aşındırıcı qüvvələri nəticəsində abidənin bir çox hissələrində material eroziyası, səth qopmaları, ornamentlərin solması və struktur deformasiyaları müşahidə olunmuşdur. Bu səbəbdən türbənin qorunması istiqamətində aparılan konservasiya və restavrasiya tədbirləri yalnız texniki deyil, həm də elmi və mədəni baxımdan mühüm əhəmiyyət kəsb edir. Qoruma prosesi bir tərəfdən abidənin fiziki davamlılığını təmin etməyə, digər tərəfdən isə onun tarixi və bədii orijinallığını saxlamağa yönəlmişdir.

## SOVET DÖVRÜNDƏ APARILAN TƏDQİQAT VƏ BƏRPA İŞLƏRİ

Sovet dövründə Naxçıvan ərazisində aparılan arxeoloji və memarlıq tədqiqatları nəticəsində Möminə xatun türbəsinin struktur sabitliyinin pozulduğu, bir sıra kərpic səthlərin dağılmağa başladığı müəyyən edilmişdir. 1940-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu tərəfindən ilkin tədqiqatlar aparılmış, abidənin vəziyyəti sənədləşdirilmişdir. Bu mərhələdə əsas məqsəd abidənin dağılmasının qarşısını almaq olmuş, ciddi bərpa işlərinə keçilməmişdir. Möminə xatun türbəsinin bərpasına hazırlıq işlərinə 1952-ci ildə başlanılmış, layihəyə bərpaçı-memar və mühəndis Tuğra Bağırzadə rəhbərlik etmişdir. O, abidənin bərpası zamanı xüsusilə kufi xətli yazıların yenidən qurulmasında ciddi çətinliklərlə üzləşmişdir. Əsrlər boyu müxtəlif basqınlara məruz qalan abidənin yazıları və bəzəklərinin böyük hissəsi məhv olmuşdu. Tuğra xanım tarixçilər və epiqrafçılarla əməkdaşlıq edərək itirilmiş yazıların elmi əsaslarla bərpasına nail olmuşdur. 1952-ci ildə Şirvanşahlar sarayında elmi-bərpa emalatxanası yaradılmış və kufi yazılar burada xüsusi qəliblərdə hazırlanmışdır. Türbənin firuzəyi kaşılarının bərpası üçün isə 1956-cı ildə Səmərqəndə səfər edilərək bəzəklərin bişirilməsi sifariş olunmuşdur. Həmin il türbənin sərdabə hissəsinin bərpası tamamlanmış, 1957-ci ildə isə dövlət tərəfindən işlərin davamı üçün 100 min sovet manatı məbləğində vəsait ayrılmışdır. Bu mərhələ Möminə xatun türbəsinin elmi əsaslarla ilk sistemli bərpası kimi Azərbaycan memarlıq tarixində mühüm mərhələ sayılır [Səlimov, 2022, s. 123, 124].

## 1960-70-Cİ İLLƏRDƏ FİZİKİ MÜHAFİZƏ TƏDBİRLƏRİ

1960-70-ci illərdə aparılan işlər isə artıq abidənin fiziki mühafizəsini təmin etməyə yönəlmişdi. Bu dövrdə fundamentin möhkəmləndirilməsi, sərdabə hissəsində rütubətə qarşı izolyasiya işləri və gövdə səthinin təmizlənməsi həyata keçirilmişdir. Sement əsaslı məhlulların istifadəsi isə o dövrün texniki imkanlarının məhdudluğundan irəli gəlirdi. Lakin bu materialların sonradan abidənin nəfəs alan strukturu üçün zərərli olduğu müəyyənləşdirilmiş və daha sonrakı mərhələlərdə onlar mərhələli şəkildə əvəz edilmişdir.

## BEYNƏLXALQ PRİNSİPLƏR VƏ YUNESKO STANDARTLARINA UYĞUNLUQ

Möminə xatun türbəsi üzərində aparılan konservasiya və restavrasiya tədbirləri beynəlxalq standartlara, xüsusilə də YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" 1972-ci il Konvensiyasının prinsiplərinə uyğun şəkildə icra edilmişdir [Məmmədzadə, 2017, s. 69].

Burada əsas diqqət abidənin autentikliyinin qorunması, müdaxilələrin minimuma endirilməsi və sənədləşmənin tamlığı prinsiplərinə yönəlmişdir. Azərbaycan mühafizə təcrübəsində bu abidə üzərində aparılan işlər model xarakter daşıyır: bir tərəfdən ənənəvi materialların tətbiqi, digər tərəfdən isə müasir texnologiyaların inteqrasiyası sayəsində milli və beynəlxalq metodologiyanın sintezi əldə edilmişdir. Nəticədə Möminə xatun türbəsi bu gün yalnız keçmişin memarlıq şah əsəri deyil, həm də elmi əsaslarla qorunmuş mədəni irs laboratoriyası kimi çıxış edir. Onun üzərində aparılan tədbirlər Azərbaycanın digər tarixi abidələrinin mühafizəsində də elmi və texnoloji baxımdan tətbiq edilə biləcək nümunəvi təcrübə formalaşdırmışdır. Möminə xatun türbəsi 30 sentyabr 1998-ci ildə Ümummilli lider, Ulu öndər Heydər Əliyevin qayğısı sayəsində YUNESKO-nun Mədəni irs siyahısına daxil edilmişdir [Hüseynova, 2025, s. 57]. Türbənin sərdabə hissəsində 2003-cü ildə qiymətli daşlardan nəfis şəkildə əsaslı bərpa işləri aparılmışdır. Restavrasiya zamanı türbənin dayanıqlılığı daha da möhkəmləndirilmiş, ornamentlərin düzülüşlərinə zərər verməyəcək şəkildə yüksək dərəcədə bərpa işləri aparılmışdır. Bərpa prosesində tədqiqatçılar bu abidə üzərində oyma üsulu ilə işlənmiş ornamentlərdə Şərq və Qərb motivlərinin birliyini müşahidə etmiş, bu cəhəti daim nəzərə almışlar [Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 309].

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ KOMPLEKS BƏRPA STRATEGİYASI

Azərbaycan müstəqillik əldə etdikdən sonra mədəni irsə qayğı dövlət səviyyəsində prioritet sahələrdən birinə çevrildi. Bu çərçivədə Möminə xatun türbəsinin qorunması istiqamətində 2000-ci illərin əvvəllərindən etibarən yeni elmi yanaşmalara əsaslanan genişmiqyaslı bərpa tədbirləri həyata keçirildi. Əvvəlcə abidənin geodezik və geoloji şəraiti öyrənildi. Yeraltı suların səviyyəsi, rütubət dərəcəsi, torpaq qatının daşıma qabiliyyəti və abidənin yüklənmə balansı analiz edildi. Bu tədqiqatlar nəticəsində məlum oldu ki, abidənin yeraltı sərdabə hissəsində mikroiqlim şəraiti sabit deyil və bu da divar rütubətinə təsir edir. Buna görə hidroizolyasiya sisteminin yenilənməsi həyata keçirildi. Əhəng əsaslı izolyasiya qatları tətbiq olundu ki, bu da abidənin nəfəsalmasını təmin etməklə rütubətin bərabər paylanmasına şərait yaratdı. Abidənin daşıyıcı kərpic divarlarında aparılan möhkəmləndirmə işləri konservasiya elminin müasir tələblərinə uyğun şəkildə yerinə yetirildi. Bunun üçün orijinal materialın kimyəvi tərkibi öyrənildi və həmin tərkibə yaxın komponentlərdən ibarət yeni bərpa məhlulu hazırlandı. Məqsəd orijinal kərpiclə yeni müdaxilələr arasında mexaniki və kimyəvi uyğunsuzluq yaratmamaq idi.

## KİTABƏLƏRİN VƏ ORNAMENTLƏRİN MİKRORESTAVRASİYASI

Türbənin səthini bəzəyən kufi xətti ilə yazılmış kitabələr həm bədii, həm də epiqrafik baxımdan qoruma işlərinin ən çətin hissəsini təşkil edirdi. Uzun illər ərzində günəş şüaları və iqlim təsirləri nəticəsində bu yazıların bir çox hissəsi solmuş, bəzi yerlərdə ornamentin relyefi zədələnmişdi. Bərpa prosesi zamanı fotoqrammetrik sənədləşdirmə aparılmış, hər bir ornament və yazı hissəsi 1:1 miqyasda foto-planşetlərdə qeyd edilmişdir. Daha sonra zədələnmiş sahələrdə mikrorestavrasiya metodları tətbiq olunmuş, orijinal ornament qatına zərər vermədən rəng və relyef bərpası həyata keçirilmişdir. Restavrasiya zamanı əsas prinsip "reversibilik" olmuşdur, yəni edilən hər bir müdaxilə gələcəkdə zərurət yarandıqda geri qaytarıla bilməlidir. Bu prinsip abidənin orijinallığını qorumağın əsas elmi meyarıdır.

## RƏQƏMSAL TEXNOLOGİYALAR VƏ 3D SƏNƏDLƏŞDİRMƏ

Son illərdə abidənin qorunması prosesində rəqəmsal texnologiyalar və 3D modelləşdirmə mühüm yer tutur. Belə ki, rəqəmsal və elmi-texnoloji vasitələr bərpa işlərinin keyfiyyətini xeyli artırır.

3D lazer skanlama, fotogrammetriya, dronla monitorinq və GIS sistemləri vasitəsilə abidələrin dəqiq ölçülərinin alınması, rəqəmsal arxivlərin və elektron xəritələrin yaradılması, eləcə də dəyişikliklərin izlənməsi və pasportlaşdırılması mümkündür. 3D modelləşdirmə və artırılmış reallıq texnologiyaları abidələrin həm qorunması, həm də ictimaiyyətə təqdimatı sahəsində yeni imkanlar açaraq konservasiya və restavrasiya proseslərini innovativ səviyyəyə yüksəldir [Seyidəhmədli, 2025, s. 72-80]. Möminə xatun türbəsi Naxçıvan Dövlət Tarix-Memarlıq Qoruğunun təşəbbüsü sayəsində 3D lazer skanlama üsulu ilə tam rəqəmsallaşdırılmışdır. Bu texnologiya abidənin mövcud vəziyyətinin millimetr dəqiqliyi ilə sənədləşdirilməsinə, həmçinin gələcəkdə baş verə biləcək hər hansı deformasiya və çatlamaların avtomatik monitorinqinə imkan verir. Bundan başqa, material analizləri də aparılmış, kərpic və məhlul nümunələrinin fiziki-texnoloji xassələri laborator şəraitdə öyrənilmişdir. Bu nəticələr əsasında bərpa zamanı istifadə olunan yeni qoruyucu məhlulların hazırlanmasında təbiiliyə üstünlük verilmiş, kimyəvi tərkibli qatların istifadəsindən qaçınılmışdır.

## DÖVLƏT SƏVİYYƏSİNDƏ QORUMA SİYASƏTİ VƏ YENİ TƏŞƏBBÜSLƏR

Möminə xatun türbəsi yalnız bir memarlıq abidəsi deyil, Azərbaycan xalqının tarixi yaddaşını, mənəvi kimliyini və bədii zövqünü əsrlər boyu yaşadan mədəni-mənəvi kod kimi dəyərləndirilməlidir. Məhz bu faktora görə abidənin qorunması və gələcək nəsillərə daha möhkəm formada miras qalması Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Belə ki, ölkə başçısı 22 may 2025-ci il tarixində "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Görülən bu mühüm tədbirlər üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 milyon manat vəsait ayrılmışdır [Əliyev, 2025]. Bərpa və konservasiya işləri Avstriyanın dünyaca məşhur restavrasiya şirkəti olan "Atelier Erich Pummer GmbH"a həvalə edilmişdir.

## NƏTİCƏ

Bu unikal əsər rasional mühəndis düşüncəsi ilə simvolik-dini dərinliyi birləşdirən mükəmməl memarlıq nümunəsidir. Zamanın və mühitin təsirləri onun qorunmasını zəruri etmişdir. Aparılan konservasiya və restavrasiya tədbirləri sübut edir ki, mədəni irsin mühafizəsi təkcə texniki deyil, həm də elmi, etik və estetik məsuliyyət tələb edən çoxşaxəli prosesdir. Möminə xatun türbəsinin bərpasında tətbiq olunan metod və materiallar "orijinallığın qorunması", "reversibilik" və "elmi sənədləşmə" prinsiplərinə uyğun həyata keçirilmiş, abidənin autentik dəyəri saxlanılmışdır. Bu proses milli təcrübə ilə beynəlxalq yanaşmaların vəhdətini nümayiş etdirərək türbənin Azərbaycan mədəniyyətinin davamlılıq və dirəniş simvolu kimi gələcək nəsillərə ötürülməsinə xidmət edir.

## ƏDƏBİYYAT

Əliyev, İ. (2025, May 22). *Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.* https://president.az/az/articles/view/68880

Hüseynova, M. (2025). *Mədəni irsin qorunması sahəsində milli və beynəlxalq tənzimetmə. Mədəni irs beynəlxalq ustad məktəbi (Tədris vəsaiti)*, 43-64. AFPoligrAF.

Məmmədzadə, E. (2017). *Mədəni irsin itirilməsi səbəbləri.* Mədəniyyət, 69-72.

*Naxçıvan abidələri ensiklopediyası.* (2008). Bakanlar media.

Seyidəhmədli, G. (2025). *Azərbaycanın tarixi mədəniyyət qoruqları.* Mədəni irs beynəlxalq ustad məktəbi (Tədris vəsaiti), 65-86. AFPoligrAF.

Səlimov, Ş. (2022). *Bərpanın məlikəsi Memar Tuğra Bağırzadənin həyat və sənət yolundan,* Memar, 34, 122-129.

Mateus, L., Fernández, J., Ferreira, V., Oliveira, C., Aguiar, J., Gago, A. S., Pacheco, P., & Pernão, J. (2019, May 8-10). Terrestrial laser scanning and digital photogrammetry for heritage conervation: case study of the historical walls of Lagos. *2nd International Conference of Geomatics and Restoration (GEORES 2019)*, 843-847. International Society for Photogrammetry and Remote Sensing (ISPRS).

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 30.01.2026**
**Son variant 25.02.2026**

M Ü Ə L L İ F L Ə R İ N   N Ə Z Ə R İ N Ə